**Cavanşir Ataş BURHANZADƏ**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin
İqtisadiyyat İnstitutunun "Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzi"nin kiçik elmi işçisi,
İqtisadiyyat İnstitutunun doktorantı
E-mail: cavanshirburhanzadeh@gmail.com

# BİZNESİN ASANLIĞI İNDEKSİ VƏ AZƏRBAYCANIN MÖVQEYİNİN YAXŞILAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə "Binesin asanlığı" indeksindən danışılır və Azərbaycanın bu indeksdəki mövqeyi təhlil edilir. Ölkəmizin bu indeksdə mövqeyinin yaxşılaşdırılması, habelə xarici investisiyaların cəlbi istiqamətində problemlərin həlli ilə bağlı təkliflər verilir.

**Açar sözlər:** "Biznesin asanlığı" indeksi, Dünya Bankı, türk dövlətləri, postsovet ölkələri

**JEL:** F10; F13; O24; F50; F52
**UOT:** 339:339.564:339.564.2
**DOI:** https://doi.org/

**Giriş**

Ölkələrin iqtisadi tərəqqisi, texnoloji inkişafı, əhalinin həyat səviyyəsi (rifahı) və s. bir sıra beynəlxalq təşkilatlar tərəfindən müəyyən indekslərlə ölçülür. Hər bir dövlətdə biznes mühitinin mövcud vəziyyəti investisiya cəlbində əsas amil kimi çıxış edir. Biznes mühitinin qiymətləndirilməsində əsas indekslərdən biri "Ease of doing business index" (Biznesin asanlığı indeksi) hesab olunur.

"Biznesin asanlığı" indeksi (Ease of doing business index) 2002-ci ildən Dünya Bankı tərəfindən hesablanır. İlk "Doing Business" hesabatı 2003-cü ildə nəşr olunmuşdur. Bu zaman 5 indikator üzrə 133 ölkədə tədqiqatlar aparılmışdır. 2020-ci ildə nəşr olunan sonuncu hesabatda 190 ölkə 10 indikator əsasında tədqiq edilmişdir [1, s.3].

"2018 və 2020-ci il hesabatlarının nəticələrini saxtalaşdırmaq və manipulyasiya etmək"lə bağlı irəli sürülən ittihamlara görə 14 sentyabr 2021-ci ildən hesabat təqdim olunmur [2]. Dünya Bankı 2023-cü ildə indeksin yeni hesablama metodlarını işləyib hazırladı. Dünya Bankından verilən məlumata görə yeni metodologiyaya əsaslanan indeks "Business Ready (B-READY)" adlanır və 2024-cü ilin sentyabrın 25-də təqdim ediləcək [3]. Qeyd etməliyik ki, bu indeks xarici investorlar üçün xüsusi əhəmiyyət daşıyır. Belə ki, bir sıra iri korporasiyalar və transmilli şirkətlər bu indeksdən çıxış edərək sərmayə qoyacaq ölkələri müəyyən edirlər.

**Əsas Hissə**

Azərbaycan 2006-cı ildən Dünya Bankının "Doing Business" hesabatlarında, o cümlədən "Biznesin asanlığı" indeksində yer alır. Dünya Bankının verdiyi statistik məlumatlara əsasən 2020-ci ildə yayımlanan son hesabatda Azərbaycan 76.7 balla 190 ölkə arasında 34-cü yerdə qərarlaşıb. Azərbaycanın bu indeksdə ən yaxşı göstəricisi isə 2019-cu ildə müşahidə edilib. Belə ki, respublikamız 2019-cu ildə 78,64 balla 25-ci yerdə mövqe tutmuşdu.

2019-cu və 2020-ci illərdə bu indeks üzrə ən yaxşı göstərici Yeni Zelandiyaya məxsusdur. İlk onluqda yer alan ölkələr içərisində qonşu Gürcüstan da var. Belə ki, Gürcüstan Respublikası 2020-ci ildə 83.7 balla 7-ci yerdə qərarlaşmışdı [4, s.4].

Cədvəl 1-də 2019-cu və 2020-ci ildə 190 ölkə arasında ilk onluqda yer alan ölkələr göstərilmişdir. Qeyd edək ki, 2019-cu ildə də ilk onluqda yer alan ölkələrin demək olar ki, hamısı (Şimali Makedoniya istisna) yenidən bu siyahıda qərarlaşdılar. 2019-cu ildə 12-ci yerdə qərarlaşan İsveç 2020-ci ildə 10-cu yerə yüksəlmişdir.

**Cədvəl 1.**

**Biznesin asanlığı dərəcəsi (Ease of doing business) reytinqində ilk onluqda yer alan ölkələr (2019, 2020)**

| İlk onluqdakı ölkələr | 2019 | İlk onluqdakı ölkələr | 2020 |
|---|---|---|---|
| Yeni Zelandiya | 1 | Yeni Zelandiya | 1 |
| Sinqapur | 2 | Sinqapur | 2 |
| Danimarka | 3 | Honq Konq | 3 |
| Honq Konq | 4 | Danimarka | 4 |
| Cənubi Kareya | 5 | Cənubi Kareya | 5 |
| Gürcüstan | 6 | Amerika Birləşmiş Ştatları | 6 |
| Norveç | 7 | Gürcüstan | 7 |
| Amerika Birləşmiş Ştatları | 8 | Birləşmiş Krallıq | 8 |
| Birləşmiş Krallıq | 9 | Norveç | 9 |
| Şimali Makedoniya | 10 | İsveç | 10 |

**Mənbə:** Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [1].

**Cədvəl 2.**

**Biznesin asanlığı dərəcəsi (Ease of doing business) reytinqində türk dövlətlərinin mövqeyi (2019, 2020)**

| Ölkələr | 2019 | 2020 |
|---|---|---|
| Qazaxıstan | 28 | 25 |
| Azərbaycan | 25 | 34 |
| Türkiyə | 43 | 33 |
| Özbəkistan | 76 | 69 |
| Qırğızıstan | 70 | 80 |
| Türkmənistan | * | * |

**Mənbə:** Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [1].

Cədvəl 2-də türk dövlətlərinin reytinqdəki mövqeyləri göstərilmişdir. Türk ölkələri içərisində Qazaxıstan, Türkiyə və Özbəkistan öz mövqeyini yaxşılaşdıra bilmişdi. Qırğızıstan isə 10 pillə geriləyərək 80-cı yerdə qərarlaşmışdır. Onu da qeyd edək ki, Türkmənistan bu hesabatlarda tədqiq olunmamışdır.

Cədvəl 3-də postsovet ölkələrinin reytinqdəki mövqeyi əks olunmuşdur. Cədvəl 3-dən də aydın olduğu kimi postsovet məkanında ən yaxşı göstərici Gürcüstana məxsusdur. Gürcüstan 2019-cu ildə 6-cı yerdə qərarlaşmışdır. Litva 2020-ci ildə 81.6 balla 11-ci yerdə qərarlaşaraq 2019-cu ildəki mövqeyini yaxşılaşdırmışdır [4, s.4].

Litvayla yanaşı Qazaxıstan, Rusiya, Ukrayna, Özbəkistan və Tacikistan da 2020-ci ilin hesabatında əvvəlki illə müqayisədə irəliləmişdir. Postsovet məkanının digər ölkələrində isə geriləmə müşahidə olunur. Latviya isə həm 2019, həm də 2020-ci illərdə 19-cu yerdəki mövqeyini qorumuşdur. Təəssüflə qeyd etməliyik ki, 2020-ci ildə respublikamızın mövqeyində də 2019-cu illə müqayisədə geriləmə müşahidə olunmuşdur. Ölkəmiz 9 pillə geriləyərək 34-cü yerdə qərarlaşmışdır.

Lakin bununla belə respublikamızın mövqeyi kifayət qədər qənaətbəxş hesab oluna bilər. Azərbaycanın bu indeks üzrə geriləməsinin səbəblərini bir sıra aspektdən analiz etmək olar. Əvvəlcə qeyd etməliyik ki, 2019 və 2020-ci illərdə Azərbaycanın bu indeks üzrə nəticələri 2006-2020-ci illər arasında qeydə alınmış ən yaxşı göstəricilərdir.

**Cədvəl 3.**

**Biznesin asanlığı dərəcəsi (Ease of doing business) reytinqində postsovet ölkələrinin mövqeyi (2019, 2020)**

| Postsovet ölkələri | 2019 | 2020 |
|---|---|---|
| Gürcüstan | 6 | 7 |
| Litva | 14 | 11 |
| Estoniya | 16 | 18 |
| Latviya | 19 | 19 |
| Azərbaycan | 25 | 34 |
| Qazaxıstan | 28 | 25 |
| Rusiya | 31 | 28 |
| Belarusiya | 37 | 49 |
| Ermənistan | 41 | 47 |
| Moldova | 47 | 48 |
| Qırğızıstan | 70 | 80 |
| Ukrayna | 71 | 64 |
| Özbəkistan | 76 | 69 |
| Tacikistan | 126 | 106 |
| Türkmənistan | * | * |

**Mənbə:** Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [1].

**Qrafik 1.**

**Biznesin asanlığı dərəcəsi (Ease of doing business) reytinqində 2006-2019-cu illər üzrə Azərbaycanın mövqeyi**




**Mənbə:** Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər Komissiyası [6].

Qrafik 1-ə əsasən deyə bilərik ki, respublikamızın mövqeyi bu indeksdə son illərdə xeyli irəliləmişdir. 2006-cı ildən 2018-ci ilə kimi bu indeks üzrə göstəricilər heç də ürəkaçan deyildi. Yalnız 2009 və 2010-cu illərdə 33 və 38-ci yerlərdə qərarlaşmışdıq. Son illərdə ölkədə aparılan uğurlu iqtisadi islahatlar bu reytinqdəki mövqeyimizi kifayət qədər yaxşılaşdırmışdır. Lakin hələ də aradan qaldırılması vacib olan bir sıra çatışmazlıqlar var ki, onların həlli bizə "Business Ready" hesabatında, habelə bu qəbildən olan beynəlxalq reytinqlərdə layiqli yer tutmaq imkanı yaradacaqdır. Qeyd etməliyik ki, indikatorlar üzrə göstəriciləri təhlil etmək ölkəmizin indeks üzrə göstəricilərinin yaxşılaşdırılması baxımından çox əhəmiyyətli olardı. Biznesin asanlığı indeksi 10 indikator əsasında hesablanır. Cədvəl 4-də 2019 və 2020-ci illərdə hər indikator üzrə Azərbaycanın göstəriciləri və mövqeyi əks olunmuşdur.

**Cədvəl 4.**

**Biznesin asanlığı dərəcəsi (Ease of doing business) indeksinin indikatorları üzrə Azərbaycanın göstəriciləri və reytinqdəki mövqeyi (2019, 2020)**

| İndikatorlar | 2019 | | 2020 | |
|---|---|---|---|---|
| | Göstərici | Mövqe | Göstərici | Mövqe |
| Biznesə başlamaq | 96.14 | 9 | 96.2 | 9 |
| Tikinti icazələri ilə məşğul olmaq | 73.11 | 61 | 73.4 | 59 |
| Elektrik enerjisi əldə etmək | 77.27 | 74 | 77.3 | 80 |
| Əmlakın qeydiyyatı | 84.63 | 17 | 75.4 | 44 |
| Kredit əldə etmək | 80.00 | 22 | 100.00 | 1 |
| Kiçik investorların qorunması | 81.67 | 2 | 50.00 | 105 |
| Vergilərin ödənilməsi | 85.23 | 28 | 84.00 | 40 |
| Sərhədlərarası ticarət | 77.04 | 84 | 77.00 | 83 |
| Müqavilələrin icrası | 67.51 | 40 | 70.3 | 28 |
| Müflisləşmənin həlli | 63.79 | 45 | 63.5 | 47 |

**Mənbə:** Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [1].

Cədvəl 4-dən aydın olur ki, "biznesə başlamaq", "tikinti icazələri ilə məşğul olmaq", "elektrik enerjisi əldə etmək", "kredit əldə etmək" və "müqavilələrin icrası" kimi indikatorlarda respublikamızın göstəriciləri artmışdır. Artım müşahidə olunan indikatorların üçü ("tikinti icazələri ilə məşğul olmaq", "kredit əldə etmək", "müqavilələrin icrası") reytinqdəki mövqeyimizə müsbət təsir göstərib. "Biznesə başlamaq" indikatorunda öz mövqeyimizi qorumaqla bərabər "elektrik enerjisi əldə etmək" indikatorunda 0.03 ballıq artıma rəğmən 6 pillə geriləmişdik. Ümumilikdə beş indikator üzrə həm göstəricilərdə, həm də reytinqdəki mövqeyimizdə geriləmə müşahidə olunmaqdadır. "Əmlakın qeydiyyatı" indikatoru üzrə 2020-ci ildə 9.23 bal azalma müşahidə olundu və bu bizim 27 pillə geriləməyimizə səbəbiyyət verdi.

Qonşu Gürcüstan bu indikatorda 92.9 balla 5-ci yerdə qərarlaşarkən postsovet məkanından Rusiya 88.6 balla 12, Belarusiya isə 87.8 balla 14-cü yerdə qərarlaşıb. Avropa və Mərkəzi Asiya üzrə regional orta göstərici isə 75.8 olmuşdur [1, s.22].

"Əmlakın qeydiyyatı" indikatorunu formalaşdıran indekslərə nəzər salsaq bu indikator üzrə geriləmənin səbəblərini daha aydın görə bilərik.

**Cədvəl 5.**

**Əmlakın qeydiyyatı indikatorunun indeksləri (2019, 2020)**

| | İndekslər | 2019 | 2020 |
|---|---|---|---|
| **Əmlakın qeydiyyatı** | Prosedurlar (nömrə) | 5 | 4 |
| | Vaxt (təqvim günləri) | 4.5 | 4.5 |
| | Xərc (əmlak dəyərinin %-i) | 5.3 | 7 |
| | Torpaq idarəçiliyinin keyfiyyəti (0-30) | 20 | 22.5 |

**Mənbə:** Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [1].

Cədvəl 5-dən aydın olur ki, 2020-ci ildə əmlakın qeydiyyatı üzrə prosedurların sayı azaldılmışdır və bu müsbət haldır. Lakin qeydiyyat zamanı çəkilən xərclərin əmlakın dəyərindəki payında isə artım müşahidə olunmaqdadır. Belə ki 2019-cu ildə 5.3%-lik hissə 2020-ci ildə 7% olmuşdur. Bu indikatorda 5-ci yerdə qərarlaşan Gürcüstanda isə prosedurların sayı 1 olmaqla bərabər, vaxt 1 təqvim günüdür. Gürcüstanda əmlak qeydiyyatına heç bir ödəniş tələb olunmur [5, s.23].

"Kiçik investorların qorunması" indikatorunda isə vəziyyət daha acınacaqlıdır. Son hesabatda ölkəmiz 103 pillə geriləmişdir. Bu indikatorda Avropa və Mərkəzi Asiya üzrə regional orta göstərici isə 61.0 olmuşdur. Gürcüstan 84.0 balla

reytinqdə 7-ci, Ukrayna 68 balla 45-ci, Rusiya isə 60.0 balla 72-ci yerdə qərarlaşıb [1, s.35].

**Cədvəl 6.**

**Kiçik investorların qorunması indikatorunun indeksləri (2019, 2020)**

| | İndekslər | 2019 | 2020 |
|---|---|---|---|
| **Kiçik investorların qorunması** | Açıqlama dərəcəsi | 10 | 10 |
| | Direktorların məsuliyyət dərəcəsi | 5 | 7 |
| | Səhmdarların iddialarına baxılmasının asanlığı | 8 | 8 |
| | Səhmdar hüquqları | 9 | 0 |
| | Mülkiyyət və nəzarət dərəcəsi | 7 | 0 |
| | Korporativ şəffaflıq | 10 | 0 |

**Mənbə:** Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [1].

Cədvəl 6-dan aydın olur ki, "səhmdar hüquqları", "mülkiyyət və nəzarət dərəcəsi" və "korporativ şəffaflıq" indekslərində 2019-cu illə müqayisədə 2020-ci ildə 100% geriləmə müşahidə olunub. Bunun əsas səbəbi isə bu indikatorun hesablanması metodologiyasında bir sıra dəyişikliklərin edilməsi ilə əlaqədar verilən balların nəzərə alınmamasıdır. Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər Komissiyasının verdiyi məlumata əsasən verilən ballar nəzərə alındığı təqdirdə ölkəmizin balı 88 olur və bu 2019-cu ilin müvafiq göstəricisindən 6.33 bal yüksəkdir [6].

"Vergilərin ödənilməsi" indikatorunda 2019-cu illə müqayisədə 2020-ci ildə 12 pillə geriləyərək 40-cı yerdə qərarlaşmışıq. Bu indikatorda Avropa və Mərkəzi Asiya üzrə regional orta göstərici isə 77.9 olmuşdur. Azərbaycan 84.0 balla orta göstəricidən daha yaxşı nəticə əldə etmişdir. Postsovet ölkələrinə nəzər salsaq Gürcüstan 89.2 balla 14, Moldova 85.2 balla 33, Ukrayna 78.1 balla 65, Belarus 71.2 balla 99-cu yerdə qərarlaşmışdır [5, s.40].

**Cədvəl 7.**

**Vergilərin ödənilməsi indikatorunun indeksləri (2019, 2020)**

| | İndekslər | 2019 | 2020 |
|---|---|---|---|
| **Vergilərin ödənilməsi** | Ödənişlər (illik sayı) | 6 | 9 |
| | Vaxt (ildə saat) | 159 | 159 |
| | Ümumi vergi dərəcəsi (kommersiya mənfəətinin faizi) | 40.8 | 40.7 |
| | Bəyannamələr təqdim edildikdən sonrakı proseslərin indeksi (0-100) | 83.79 | 83.8 |

**Mənbə:** Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [1].

Cədvəl 7-yə nəzər yetirdikdə müşahidə edirik ki, bu indikatorda əsas diqqəti çəkən indeks "ödənişlərin illik sayı"dır. Bu indeksin 6-dan 9-a qalxması onu göstərir ki, 2020-ci ildə sahibkarlıq subyektlərinin bir çoxu vergi bəyannamələrinin düzgün tərtibində və vergiylə yazışmalarda xətalara yol vermişlər. Bundan başqa, sosial sığorta ayırmalarının vergi yükündə xüsusi çəkisinin artması da bu indikator üzrə göstəriciyə mənfi təsir göstərmişdir.

Qeyd etmək lazımdır ki, Gürcüstanda "ödənişlərin illik sayı" indeksi 5-dir. Gürcüstanın bu indikatorda yaxşı nəticə əldə etməsinin əsas səbəbi "ümumi vergi dərəcəsi (kommersiya mənfəətinin faizi)" indeksində 9.9% nəticə göstərməsidir. Müvafiq göstərici 2020-ci ildə Azərbaycanda 40.7% olmuşdur [5, s.40].

"Müflisləşmənin həlli" indikatorunda 2020-ci ildə 2 pillə geriləyərək 47-ci yerdə qərarlaşmışdıq. Bu indikatorda Avropa və Mərkəzi Asiya üzrə regional orta göstərici isə 55.7 olmuşdur. Azərbaycan 63.5 balla orta göstəricini 7.8 bal qabaqlamışdır. Respublikamız bu indikatorda bir sıra postsovet ölkələrini qabaqlayır. Belə ki, Gürcüstan 56.2 balla 64, Moldova 54.8 balla 67, Belarus 52.9 balla 74, Ukrayna 31.4 balla 146-cı yerdə qərarlaşmışdır [5, s.57].

**Cədvəl 8.**

**Müflisləşmənin həlli indikatorunun indeksləri (2019, 2020)**

| | İndekslər | 2019 | 2020 |
|---|---|---|---|
| **Müflisləşmənin həlli** | **Vaxt (illər)** | 1.5 | 1.5 |
| | **Xərc (əmlakın faizi)** | 12 | 12 |
| | **Ödəmə dərəcəsi (dollar başına sentlə)** | 40.1 | 39.7 |
| | **Müflisləşmə çərçivəsi (0-16)** | 13.5 | 13.5 |

**Mənbə:** Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır [1].

Cədvəl 8-dən aydın olur ki, bu indikatorda geriləməyimizin yeganə səbəbi “ödəmə dərəcəsi” indeksidir. 2019-cu ildə bir ABŞ dollarına 40.1 sent ödəmə dərəcəsi var idisə, 2020-ci ildə bu göstərici 39.7 sentə düşmüşdür. Bu indeks üzrə ən yaxşı göstərici Norveçə məxsusdur. Belə ki, Skandinaviya ölkəsində biznes subyektlərinin ödəmə dərəcəsi 92.9 sent təşkil edir. Avropa və Mərkəzi Asiya regionunda bu indeks üzrə orta göstərici 38.5 sent olmuşdur [1, s.57].

**Nəticə**

Dünya Bankının məlumatlarına əsasən apardığımız təhlildən belə bir nəticəyə gəlmək olar ki, “Binesin asanlığı” (Ease of doing business) hesabatında ölkəmizin mövqeyini qənaətbəxş hesab etmək olar. Xüsusilə qeyd etməliyik ki, Azərbaycan bu indeksdə son hesabatlarda (2019 və 2020-ci illərin hesabatları) bir çox türk dövlətlərini, o cümlədən postsovet ölkələrini qabaqlayıb. Lakin 2020-ci ildə 9 pillə geriləməsi müəyyən narahatçılıqların yaranmasına əsas verir. Təhlildən əldə etdiyimiz nəticələrə əsasən deyə bilərik ki, indeksdə geriləməyimizin səbəbləri 4 indikator üzrə aşağı göstəricilərimiz olmuşdur.

Qeyd etdik ki, 2024-cü ildən etibarən Dünya Bankı “Business Ready” hesabatı təqdim edəcəkdir. Azərbaycanın mövqeyini həm “Business Ready” hesabatında, həm də bu qəbildən olan digər beynəlxalq hesabatlarda yaxşılaşdırmaq istiqamətində bir sıra tədbirlər görülə bilər. Bu istiqamətdə aşağıdakı təkliflər irəli sürülür:

- ➢ əmlak qeydiyyatı üzrə prosedurların sayının azaldılması və mümkün qədər ən qısa zamanda prosesin təşkili (bu istiqamətdə Gürcüstan təcrübəsindən yararlanmaq olar);
- ➢ əmlak qeydiyyatı üzrə çəkilən xərclərin minimuma endirilməsi və bu sahədə tam şəffaflığa nail olunması;
- ➢ iqtisadiyyatın bütün sahələrində dövlət qurumları tərəfindən kiçik və orta biznes subyektlərinə əlavə üstünlüklərin tanınması;
- ➢ İqtisadiyyat Nazirliyi tərəfindən sahibkarlara maarifləndirici xidmətlərin təklif edilməsi;
- ➢ vergi sisteminin sadələşdirilməsi istiqamətində aşağıdakı tədbirlər görülə bilər:
  - ✓ biznes subyektlərini investisiya fəaliyyətinə həvəsləndirən və sahibkarlıq subyektləri tərəfindən anlaşılan vergi sisteminin yaradılması;
  - ✓ bir sıra vergi növlərini vahid vergi növündə birləşdirmək;
  - ✓ vergi uçotunu sadələşdirmək;
  - ✓ hesabat sənədlərini azaltmaq;
  - ✓ vergi dərəcələrini biznes subyektinin yerləşdiyi əraziyə və həmin ərazinin coğrafi quruluşuna, əhali sayına görə müəyyənləşdirmək;
  - ✓ İEÖ-nün vergi sistemi təcrübəsindən yararlanmaq;
  - ✓ biznes subyektləri ilə vergi orqanları arasındakı münasibətlərin təkmilləşdirilməsi;
  - ✓ vergi qanunvericiliyinin pozulması halında cəza sisteminin təkmilləşdirilməsi;
- ➢ müflisləşmənin həlli istiqamətində beynəlxalq təcrübədən çıxış edərək aşağıdakı tədbirlər görülə bilər:
  - ✓ təşkiletmə və ləğvetmə prosedurlarının təkmilləşdirilməsi;
  - ✓ müflisləşmə prosedurlarında anlaşıqlığın artırılması üçün formallıqların azaldılması;
  - ✓ müflisləşmə prosedurları başlayandan sonra “vaxt limitləri”nin tətbiqi;
  - ✓ müflisləşmə ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi.

Bu görülən tədbirlər heç şübhəsiz ki, respublikamızın beynəlxalq reytinqlərdəki mövqeyini yaxşılaşdırmaqla qalmayacaq, həm də ölkəmizə

xarici innovativ investisiyaların cəlbində müstəsna rol oynayacaqdır.

### ƏDƏBİYYAT SİYAHISI:

1. Doing Business 2020: Economy profile of Azerbaijan / S.Croci [et al.] – Washington: World Bank Publication, – 2020. – 67 p.
2. World Bank Group to Discontinue Doing Business Report: [Electronic resource] / World Bank Group. – September 16, 2021. URL:https://www.worldbank.org/en/news/statement/2021/09/16/world-bank-group-to-discontinue-doing-business-report
3. The World Bank's flagship report on business environment worldwide: [Electronic resource] / World Bank Group. – January 5, 2023. URL: https://www.worldbank.org/en/businessready
4. Doing Business 2020 / S.Croci [et al.] – Washington: World Bank Publication, – 2020. – 67 p.
5. Doing Business 2020: Economy profile of Georgia / S.Croci [et al.] – Washington: World Bank Publication, – 2020. – 68 p.
6. Doing Business hesabatı: [Elektron resurs] / Azərbaycan Respublikasının Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyası. URL: https://azranking.az/az/ratings/indikatorlarin-ve-subindikatorlarin-siyahisi-84

**Javanshir Atesh BURHANZADEH**
Ministry of Science and Education of the Republic of Azerbaijan
Junior researcher of the "Scientific Center for Reconstruction of Post-conflict Territories" of the Institute of Economics, doctoral student of the Institute of Economics
E-mail: cavanshirburhanzadeh@gmail.com

## EASE OF DOİNG BUSİNESS İNDEX AND DİRECTİONS FOR İMPROVEMENT OF AZERBAİJAN'S POSİTİON

**Summary**

The article talks about the "Ease of doing business" index and analyzes the position of Azerbaijan in this index. Proposals are made regarding the improvement of the position of our country in this index, as well as the solution of problems in the direction of attracting foreign investments.

**Keywords:** *"Ease of doing business" index, World Bank, turkish states, post-soviet countries*

**Джаваншир Атеш БУРХАНЗАДЕ**
Министерство науки и образования Азербайджанской Республики
Младший научный сотрудник «Научного центра реконструкции постконфликтных территорий» Института Экономики, докторант Института Экономики
Электронная почта: cavanshirburhanzadeh@gmail.com

## ИНДЕКС ЛЕГКОСТИ ВЕДЕНИЯ БИЗНЕСА И НАПРАВЛЕНИЯ УЛУЧШЕНИЯ ПОЛОЖЕНИЯ АЗЕРБАЙДЖАНА

**Резюме**

В статье говорится об индексе «Легкости ведения бизнеса» и анализируется положение Азербайджана в этом индексе. Внесены предложения по улучшению позиции нашей страны в этом индексе, а также решению проблем в направлении привлечения иностранных инвестиций.

**Ключевые слова:** *индекс «Легкости ведения бизнеса», Всемирный Банк, турецкие государства, постсоветские страны.*